**Dövlət Statistika Komitəsi nümayəndəsinin İstanbulda keçirilmiş "Məlumatlar bazasının optimallaşdırılması və məlumatların mübadiləsinin formatları" mövzusuna dair seminarda və Cenevrədə təşkil olunmuş "Ekoloji göstəricilərə dair" məqsədli işçi qrupun beşinci sessiyasında iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin Ekologiya, meşə təsərrüfatı və balıqçılıq statistikası sektorunun müdiri Rəna Lazımova cari ilin iyun ayının 25-26-da İstanbulda İNSPİRE-2012 (Avropa İttifaqında məkan informasiyasının infrastrukturu) proqramı çərçivəsində "Məlumatlar bazasının optimallaşdırılması və məlumatların mübadiləsinin formatları" mövzusunda keçirilmiş seminarda və iyul ayının 4-6-da Cenevrə şəhərində təşkil olunmuş "Ekoloji göstəricilərə dair" məqsədli işçi qrupun 5-ci sessiyasında iştirak etmişdir.




Seminarın məqsədi yeni texnologiyalar, məlumatların tələb olunan formatlarda mübadilə imkanları barədə informasiya verilməsi, məlumat və hesabatların tərtibi üçün informasiya axınının təşkili prosesləri sahəsində qabaqcıl nümunələrin təqdim edilməsi olmuşdur.

Seminarda Macarıstanda ekoloji informasiya sistemlərinin qurulmasına, Fransada EİS-in tətbiqinə, Tunisdə açıq məlumatlar və ekoloji informasiyaya, İsveçrədə ekoloji indikatorlara dair prezentasiyalar təqdim olunmuşdur.

İkinci tədbirdə MDB dövlətlərinin statistika orqanlarının və ekologiya nazirliklərinin əməkdaşları, eləcə də Gürcüstan, Sloveniya, Serbiya, Bosniya və Herseqovinanın, Birləşmiş Ərəb Əmirliklərinin, Avropa Ətraf Mühit Agentliyinin, Avropa İqtisadi Komissiyasının, MDB Statistika Komitəsinin və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak etmiş və aşağıdakı məsələlər müzakirə olunmuşdur:

1. BMT-nin Avropa İqtisadi Komissiyasının hazırladığı "Ətraf mühit göstəricilərinin istifadəsi üzrə Tövsiyələr"dən altı göstəricinin müzakirəsi.
2. "Ətraf mühit göstəricilərinin istifadəsi üzrə Tövsiyələr"ə daxil edilməyən daxili göllər və dəniz suları üzrə göstəricilərin üçüncü oxunuşda müzakirəsi.
3. "Ətraf mühit göstəricilərinin istifadəsi üzrə Tövsiyələr"ə daxil edilməyən biomüxtəliflik üzrə göstəricilərin müzakirəsi.
4. Ekoloji İnformasiyanın Birgə Sisteminin (EİBS) yaradılması layihəsi çərçivəsində Cənub-Şərqi Avropa, Qafqaz ölkələri və Rusiya Federasiyası üçün göstəricilərin seçilməsi və gələcək iş planları.

Ölkə nümayəndələrinə "Ətraf mühit göstəricilərinin istifadəsi üzrə Tövsiyələr"də verilmiş altı göstəricinin (atmosfer havasına zərərli maddələrin atılması, istilik effekti yaradan qazlar, adambaşına düşən su istehlakı, su itkiləri, torpaqların məhsul dövriyyəsindən çıxarılması, mineral və üzvi gübrələrin istifadəsi) qiymətləndirilməsi tapşırılmışdır.

Müzakirələr zamanı ölkə nümayəndələrinə cədvəllərdə müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması və cari ilin sentyabr ayının 25-dək Katibliyə yenidən təqdim edilməsi tapşırılmışdır.

Daha sonra "Ətraf mühit göstəricilərinin istifadəsi üzrə Tövsiyələr"ə daxil edilməyən biomüxtəliflik üzrə daha üç göstərici müzakirə edilmişdir:

- beynəlxalq əhəmiyyətli biosfer qoruqlar və bataqlıqlar;
- invaziv yad növlər;
- balıq və digər su heyvanlarının ovu, su heyvanları məhsulları və su bitkiləri.

Beynəlxalq əhəmiyyətli biosfer qoruqlar və bataqlıqlar, invaziv yad növlər üzrə göstəricilərə dair müzakirələr aparılmış və onlar qəbul edilmişdir. Balıq və digər su heyvanlarının ovu, su heyvanları məhsulları və su bitkiləri üzrə göstəricilərin isə ölkə mütəxəssisləri tərəfindən yenidən nəzərdən keçirilməsi tapşırılmışdır.

"Ekoloji İnformasiyanın Birgə Sisteminin yaradılması üzrə Avropa qonşuluq və əməkdaşlıq layihəsi"nin rəhbəri, Ətraf Mühit üzrə Avropa Agentliyinin nümayəndəsi Gordon Makinnes ekoloji göstəricilərin ilkin yığımına dair məlumat vermiş, 14 əsas göstərici və onlara dair metaməlumatlar üzrə sorğu vərəqlərinə baxılmasını təklif etmişdir. Bu göstəricilər - atmosfer havasının çirklənməsi və ozon təbəqəsinin dağılması (6 göstərici), iqlim dəyişilmələri (2 göstərici), tullantılar (1 göstərici), su (4 göstərici), biomüxtəliflik (1 göstərici) - müzakirə edilmiş və onlara dair metaməlumatların hazırlanması tapşırılmışdır.